

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 6 dekabr 2023-cü il №92 (2804) https://mod.gov.az Qiyməti 30 qəpik


*Heydər Əliyev - 100*

## Ulu Öndərin ömür yolu Vətənə və xalqa xidmət nümunəsidir

*Tarixin axarını nurlu sabahlara tarixi şəxsiyyətlər yönəldirlər. Min illərdi belə olub, indi də belədi, min illərlə belə də olacaq. Bu da dünyanın dərkini müəyyənləşdirən fəlsəfədi - dünyaduyumudu, dünyagörüşüdü. Siyasətdə də, ədəbiyyatda da, mədəniyyətdə də, ... Nizami kimi, Nüşabə kimi, Füzuli kimi, Nəsimi kimi, Tusi kimi, Xətai kimi, Nəvvab kimi, Sadıqcan kimi, ... şəxsiyyətlər bəşərilik yolunu idrakıyla, xalqına dünyəvi sevgisiylə, dövlətə sədaqətiylə göstəriblər. XX əsr Ulu Öndər Heydər Əliyevi də dünyaya belə tanıtdı...*



XX əsrin sonlarında - 1991-ci il oktyabrın 18-də Azərbaycanın dövlət müstəqilliyi bərpa olundu, "Gülüstan" müqaviləsinin bir hissəsi qüvvədən düşdü - Arazın bu tayında Azərbaycan dövlətçiliyi bərpa edildi. İmperiya zənciri qırılsa da, gənc Azərbaycan dövlətini tarixə qısqanan kənar qüvvələr də, siyasi şəbəkələr də, bu qüvvələri, şəbəkələri idarə edən dövlətlər də varmış. Azərbaycana qarşı dövləti parçalamaq cəhdi - separatçılıq niyyəti, Bakıda hakimiyyət boşluğu, səriştəsizlik, vətəndaş qarşıdurması, siyasi ambisiyaların dövlətçilik arzularını üstələməsi, ... Azərbaycanı sevməyənləri, Azərbaycan dövlətçiliyinin süqutunu arzulayanları fəallaşdırmışdı. Fəallaşanlar Azərbaycanda mövcud siyasi vəziyyətin mahiyyətini "Qordi düyünü" bilirdi. Xalq vətəndaş müharibəsi təhlükəsi ərəfəsində bu düyünü Azərbaycan dövlətçiliyindən kəsib atmağa qadir olan böyük tarixi şəxsiyyəti - Heydər Əliyevi israrla hakimiyyətə dəvət etdi...

1993-cü ilin iyun ayı idi...

Ulu Öndər Heydər Əliyev televiziya ilə xalqa müraciət etdi, hamını dövlətçiliyi qorumağa çağırdı. Bu müraciət Vətənin harayı kimi dinlənildi. Bir çağırışla Azərbaycanın dövlətçiliyinin müdafiəsinə minlərlə insan toplaşdı. Bu çağırış Vətənin çağırışı idi və ruhu rəvanlar bu çağırışı "Çağırdınız - gəldim, çağırıram - dövlətçiliyimiz naminə gəlin" fikrinin ifadəsi bildilər... Çağırış da vətənpərvərlik idi, çağırışa gəlmək də. Bu çıxış Bakıya qayıtdıqdan sonra ən böyük azərbaycanlının dövlətçilik naminə tarixi çıxışı, yerinə yetirdiyi növbəti tarixi vətəndaşlıq borcu idi...

Fərdlərin vətənpərvərliyi - məlum, xalqın vətənpərvərliyi bəşəri vətənpərvərlikdi, mübariz vətənpərvərlikdi, əsrlərdən süzülüb gələn vətənpərvərlikdi, həm də qətiyyətli vətənpərvərlikdi - həmişə özgələrə görk olub, özümüzünkülərə - fəxr. Böyük tarixi şəxsiyyətlərin vətənpərvərliyində xalqın vətənpərvərliyinin işığı var, bəzən də onun eyni olub. Azərbaycançılığı ilə həmişə fəxr edən böyük tarixi şəxsiyyət Heydər Əliyevin vətənpərvərliyi belə vətənpərvərlik idi və başlanğıcı 1969-cu il olan zamanı dövlətçilik manifesti kimi tarixləşdirdi.

Bədxahlıq tarixin nəhsini təkrarlamaq istəyirdi - 1920-ci ilin aprelində Azərbaycan dövlətçiliyini rus imperiyası ilhaq eləmişdi, 1992-ci ilin iyununda Azərbaycan dövlətçiliyini bəlli olan və bəlli olmayan qüvvələr parçalamaq istəyirdilər. Azərbaycan Demokratik Cümhuriyyəti 23 ay yaşamışdı, bədxahlar - Azərbaycan Respublikasının da yaşamını gödəltməyə, bəlkə də sonlandırmağa niyyətliydilər. Azərbaycan dövlətçiliyinə qondarılan bu siyasət düyünü müdrikliklə, dövlətçilik təfəkkürü ilə, vətənpərvərlik heysiyyəti ilə çözüldü, Heydər Əliyev çözdü, Azərbaycan dövlətçiliyi parçalanmaqdan, süqutdan xilas edildi. Bu qurtuluş tarixə tarix dərsi oldu - tarixə Ulu Öndər dərsi! Bu dərs dövlətçilik təfəkkürü ilə vətənpərvərliyin vəhdətinin dərsi idi! Tarix onu da gördü ki, böyük tarixi şəxsiyyətlərin vətənpərvərliyi də böyük olur!..

Böyük tarixi şəxsiyyət sonralar - 1998-ci il fevralın 18-də Yeni Azərbaycan Partiyasının gənclər birliyi nümayəndələrinin ümumrespublika toplantısında demişdi: "Bizim vətəndaşlıq borcumuz milli-mənəvi dəyərlərimizə, doğma torpağımıza, doğma ana dilimizə, böyük və zəngin tariximizə, millətimizə sadiq olmaqdan ibarətdir".

Xocalıda faciə törətdikdən sonra Ermənistan Azərbaycanın ərazilərində hərbi əməliyyatları genişləndirmişdi. Döyüşə-döyüşə nizami ordu kimi formalaşan ordumuzun şəxsi heyətinin döyüş hazırlığını tamamlayan mənəvi-psixoloji hazırlıq da yüksəlirdi. Təkcə tədbirlərlə deyil, həm də hərbi əməliyyatla - 1994-cü il yanvarın 5-də Ulu Öndər Heydər Əliyevin sərkərdəliyi ilə Horadiz əməliyyatı keçirildi. Həm siyasi, həm də hərbi qayəsi vətənpərvərlik olan bu əməliyyat nəticəsində 1 qəsəbə, 21 kənd düşməndən azad edildi. Azərbaycan əsgərinin döyüş əzmi də yüksəldi, qələbə ruhu da. Ulu Öndər əməliyyat ərəfəsində 1993-cü il dekabrın 27-də Azərbaycanın Milli Qəhrəmanları və şəhid ailələri ilə görüşdə demişdi: "Vətəndaş" sözü böyük sözdür, müqəddəs sözdür. "Vətəndaş" sözü o deməkdir ki, hər bir vətəndaş öz Vətəninə sadiq olmalıdır, onu göz bəbəyi kimi qorumalıdır və Vətənin uğrunda, torpağının uğrunda, anasının, atasının müdafiəsi yolunda şəhid olmağa hazır olmalıdır". Bu kəlamlar da vətənpərvərlik kəlamları idi, vətənpərvərliyin kəlamları idi.

Böyük tarixi şəxsiyyət Heydər Əliyev Vətəni sevirdi, Vətəni sevənləri sevirdi, bu sevgi inam idi, bu inam - vətənpərvərlik. Dahi tarixi şəxsiyyət vətənpərvərliyi - vətənsevərliyi potensial güc adlandırırdı, güc kimi dəyərləndirirdi: "Ən böyük potensial bizim insanların Vətənə, torpağa bağlılığı, Vətəni, torpağı sevməsi və onu qorumaq hissidir". Bu kəlamların mahiyyəti də Vətəni sevmək fəlsəfəsidi - vətənpərvərlikdi.

Vətənpərvərlik həm də tarixə bələdlikdi, tarixi bilməkdi, tarixin dünənlərini yaşada-yaşada bu günü sabahlar üçün tarixləşdirmək missiyasıdı. "Kitabi-Dədə Qorqud" dastanlarının 1300 illiyinin təntənəli şəkildə, beynəlxalq səviyyədə keçirilməsi xalqın tarixinə sədaqət idi, sədaqət - vətənpərvərlik. Ədəbiyyat, mədəniyyət, incəsənət korifeylərinin abidələrinin ucaldılması, yubileylərinin təşkili ədəbiyyatımıza, mədəniyyətimizə, incəsənətimizə sevgi idi, sevgi - vətənpərvərlik. Dünya azərbaycanlılarının mənəvi birliyinin ideoloji konturlarını müəyyənləşdirmək, əsaslarını hazırlamaq, bu birliyi təşkilatlandırmaq tarixi hesabat idi, bu biçim hesabat - vətənpərvərliyin davamı. 2004-cü ildə Bakıda Dünya Azərbaycanlılarının I Qurultayı oldu.

Mehdi Hüseynzadəyə Sovet İttifaqı Qəhrəmanı adının verilməsi birmənalı şəkildə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin nüfuzu, tarixi hadisələrə bələdliyi, hadisələrin mahiyyətindən gerçəkliyi aşkarlama və təsdiqləmə bacarığı ilə gerçəkləşdi. Bunlar böyük vətənpərvərlik idi!..

Hələ Sovetlər dönəmində Bakıda Məişət Kondisionerləri zavodunun, Elektron Hesablama Maşınları zavodunun, "Ozon" zavodunun, ... istehsala qoşulması Azərbaycanın həm iqtisadiyyatının səviyyəsini yüksəldirdi, həm də dövlətçilik dühasının vətənpərvərliklə vəhdətinin nəticəsi kimi onu ittifaqda daha əhatəli tanıdırdı...

Cəmşid Naxçıvanski adına Hərbi Liseyin yaradılması müqayisəyəgəlməz vətənpərvərliyin təzahürü olmuşdu.

Azərbaycanlı çağırışçıların sabiq SSRİ-nin müxtəlif təyinatlı hərbi hissələrində xidmət etməsini, gənclərin müxtəlif ali hərbi məktəblərdə hərbi təhsil almasını tənzimləməsi də dövlətçilik təfəkkürü ilə vətənpərvərliyin vəhdətinin qüdrəti idi...

Hərbi Akademiyanın yaradılması ordu quruculuğu prosesinin elmi əsaslarla aparılmasını təmin etdi. Sonralar burada təhsil almış zabitlərin hərbi xidməti ordu quruculuğunun uğurla davam etdirilməsində son dərəcədə əhəmiyyətli oldu...

Hər bir iqtisadi müqavilə siyasətin davamı və nəticəsidi. Qarşılıqlı etimad olmadan beynəlxalq iqtisadi müqavilələr imzalana bilməz. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin təşəbbüsünün, təşkilatçılığının və dövlətçilik məharətinin nəticəsi olan neft müqavilələri, eləcə də "İpək yolu" layihəsi böyük tarixi şəxsiyyətin dövlətçilik təfəkkürünün və vətənpərvərliyinin nəticəsi olaraq Azərbaycanın iqtisadi maraqlarını da əhatələdi, siyasi maraqlarını da...

Böyük tarixi şəxsiyyət Heydər Əliyevin vətənpərvərlik fəlsəfəsi azərbaycançılığı, Azərbaycan dövlətçiliyinin mahiyyətini ifadə edirdi.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev böyük tarixi şəxsiyyət idi, ən böyük azərbaycanlı idi, ən sadəqətli vətəndaş idi, ən səmimi vətənpərvər idi...

**"Azərbaycan Ordusu"**

# Müdafiə nazirinin Misirə səfəri






Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov və Nazirliyin digər rəhbər heyəti Misir Ərəb Respublikasının müdafiə nazirinin dəvəti ilə "EDEX-2023" sərgisində iştirak etmək üçün bu ölkədə səfər ediblər.

General-polkovnik Zakir Həsənov dekabrın 4-də "EDEX-2023" beynəlxalq müdafiə sərgisinin təntənəli açılış mərasimində iştirak edib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, mərasimdə çıxış edən Misir Ərəb Respublikasının Prezidenti cənab Əbdülfəttah Əs-Sisi qonaqları salamladıqdan sonra sərgini açıq elan edib.

Müdafiə naziri "EDEX-2023" beynəlxalq müdafiə sərgisində nümayiş etdirilən Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyinin müəssisələrinə, eləcə də Türkiyə Respublikasının "TUSAŞ", "ROKETSAN", "ASELSAN", "SARSILMAZ", "CANİK", "BAYKAR" şirkətlərinə məxsus silah, texnika və hərbi təyinatlı vasitələrlə tanış olub.

Səfər çərçivəsində general-polkovnik Zakir Həsənov şirkət rəhbərləri ilə görüşüb.

Görüşlərdə hərbi-texniki əməkdaşlığın inkişaf perspektivləri və qarşılıqlı maraq doğuran bir sıra digər məsələlərə dair ətraflı müzakirələr aparılıb.

* * *

"EDEX-2023" beynəlxalq müdafiə sərgisində iştirak edən general-polkovnik Zakir Həsənov İtaliya Respublikasının "Leonardo" şirkətinin, eləcə də Misirin "ARMADA" və "AOI" şirkətlərinin stendlərində təqdim edilən müasir silah və döyüş texnikası nümunələrini maraqla izləyib.

Sərgidə müxtəlif ölkələrin şirkətləri istehsal etdikləri hərbi təyinatlı məhsullar barədə ziyarətçilərə ətraflı məlumatlar veriblər.

* * *

Səfər çərçivəsində general-polkovnik Zakir Həsənov Misir Ərəb Respublikasının müdafiə naziri general-polkovnik Mohamed Ahmed Zaki ilə görüşüb.

Azərbaycanın Misirdəki Fövqəladə və Səlahiyyətli səfiri Elxan Poluxovun da iştirak etdiyi görüşdə ölkələrimiz arasında hərbi, hərbi-texniki sahələrdə əməkdaşlığın cari vəziyyəti və inkişaf perspektivləri, eləcə də qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə edilib.







# Baş Qərargah rəisi yüksək dağlıq ərazidə yerləşən hərbi hissələrin döyüş hazırlığını yoxlayıb







*Müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev və Nazirliyin digər vəzifəli şəxsləri Ermənistan ilə sərhəd Gədəbəy, Daşkəsən və Kəlbəcər istiqamətlərində yerləşən hərbi hissələrdə olublar.*

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, qeyd olunan istiqamətlərdə dislokasiya olunan bölmələrdə hərbi qulluqçularla görüşən Baş Qərargah rəisi Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin ordumuz qarşısında qoyduğu tapşırıqları şəxsi heyətə çatdırıb, onların icrası ilə əlaqədar konkret göstərişlər verib.



Yüksək dağlıq ərazilərdəki mövqelərdə yerləşən bölmələrdə qoşun xidməti və döyüş növbətçiliyinin təşkili yoxlanılıb. Məruzə olunub ki, mövqelərdə günün nizam qaydalarına uyğun sutka boyu fasiləsiz xidmət aparılır, döyüş növbətçiliyi təşkil olunur.

General-polkovnik K.Vəliyevin, həmçinin artilleriya, mühəndis və komando hərbi hissələrinə gələrək döyüş hazırlığını yoxlayıb, bölmələrin gündəlik fəaliyyəti, yerinə yetirilən tədbirlərlə bağlı komandir heyətlərinin məruzələrini dinləyib. Bildirilib ki, qarşıya qoyulmuş tapşırıqlar plan üzrə icra olunur, döyüş hazırlığı tədbirlərinin tələblərə uyğun təşkili və keçirilməsinə xüsusi diqqət yetirilir.

Sonda Baş Qərargah rəisi komando bölmələrindən birinin döyüş hazırlığı üzrə təlim və məşqlərini izləyib, onların keyfiyyət və intensivliyinin daha da artırılması, habelə şəxsi heyətin praktiki vərdişlərinin təkmilləşdirilməsi və hazırlıq səviyyəsinin yüksəldilməsi barədə komandanlıq qarşısında konkret tapşırıqlar qoyub.



*Şərh*

# Üçtərəfli formatda hərbi əməkdaşlıq regionda sülhə və sabitliyə böyük töhfədir

Dünya siyasətçilərinin və tarixçilərinin də təsdiqlədiyi kimi Qafqaz regionu üçün əsrimizin ən mühüm hadisəsi, şübhəsiz ki, Azərbaycanın işğal altında olan torpaqlarının azad edilməsi əməliyyatları oldu. Bildiyimiz kimi, 2020-ci ilin 27 sentyabr tarixində başlayan və Ali Baş Komandanın rəhbərliyi altında 44 gün davam edən Vətən müharibəsi Azərbaycanın tam qələbəsi ilə başa çatdı. Ermənistan 2020-ci il noyabrın 10-da kapitulyasiya aktına imza atmağa məcbur oldu. Azərbaycan 30 ilə yaxın davam edən münaqişəni hərbi-siyasi yolla həll etdi və tarixi ədalət bərpa olundu. Bu tarixi Zəfərdən sonra Azərbaycan regionda dayanıqlı sülhün və təhlükəsizliyin təmin olunması üçün kifayət qədər münbit şərait yaratdı. Qafqaz geosiyasi məkanında müxtəlif vaxtlarda öz maraq dairəsi baxımından bir sıra dövlətlərin apardığı siyasət bu regionda həlli dalana dirənmiş problemlərin əsasını qoymuşdur. Lakin indiki postmüharibə dövrü, doğrudan da, yeni imkanlar açır, əməkdaşlıq, qarşılıqlı ticarət, kommunikasiyaların açılması, yeni nəqliyyat dəhlizlərinin yaradılması üçün çox nadir imkanlar yaradır. Xüsusi ilə qeyd etmək yerinə düşər ki, Vətən müharibəsindən sonra Azərbaycan Ermənistana sülh müqaviləsinin imzalanmasını təklif etmişdir. Bu müqavilə imzalanacağı təqdirdə region dövlətlərinin hamısının faydalana biləcəyi yeni inkişaf mərhələsi başlayacaq və yeni iqtisadi-siyasi vəziyyət yaranacaqdır.

Azərbaycanın tarixi zəfərindən sonra regionda geosiyasi və geoiqtisadi vəziyyət dəyişmişdir. Bütün iqtisadi əlaqələrin və nəqliyyat kommunikasiyalarının bərpası üçün yeni əməkdaşlıq imkanları yaranmışdır və regionun nəqliyyat dəhlizi kimi rolunun daha da artacağını nəzərə alaraq, təhlükəsizliyin təmin olunması, eləcə də dayanıqlı sülhə, sabitliyə nail olunması üçün ikitərəfli, üçtərəfli və çoxtərəfli əməkdaşlığın və qarşılıqlı uzlaşmanın önəmi əsaslı dərəcədə artmışdır.

Hesab edirəm ki, region dövlətləri arasındakı səmimi münasibətlər və qarşılıqlı etimad, həmçinin bu ölkələrin müdafiə sahəsi üzrə iki və üçtərəfli əməkdaşlıqlar, sülh naminə tərəfdaşlıq sahəsində hər kəsə örnək ola biləcək bir nümunədir. Bu mənada, qonşu dövlətlərin ikitərəfli, üçtərəfli birgə fəaliyyətləri regionda sabitliyin qorunub saxlanılmasına və dayanıqlı sülhün bərqərar olmasına yönəlmiş sülhməramlılıq mesajı kimi qiymətləndirilməlidir.

Regionda yaranmış yeni reallıqlar və müharibədən sonrakı vəziyyət nəzərə alındıqda aydın görünür ki, bu gün belə görüşlərin və region dövlətlərinin çoxtərəfli hərbi əməkdaşlığının rolu daha böyük əhəmiyyət kəsb edir.

Bu istiqamətdə növbəti görüş noyabrın 27-də Bakıda baş tutdu. Üçtərəfli formatda Azərbaycan, Gürcüstan və Türkiyə müdafiə nazirləri səviyyəsində onuncu görüş keçirildi. Görüş üç ölkə arasında mövcud olan müsbət, strateji səviyyəli dialoqun bariz nümunəsidir. Görüşdə müdafiə nazirləri üç dost və qonşu xalq arasında münasibətlərin və fəaliyyətlərin ikitərəfli və üçtərəfli formatda inkişaf etdirilməsinin səmərəliliyi, əməkdaşlığın gələcək inkişaf perspektivləri, regionda və dünyada cərəyan edən hərbi-siyasi proseslər, bölgədə sabitliyin təmin edilməsi yolları və qarşılıqlı maraq doğuran digər məsələlər haqqında geniş fikir mübadiləsi aparıblar.

Müzakirələr zamanı bölgədə sülhün, sabitliyin, təhlükəsizliyin və birgə əməkdaşlığın əhəmiyyəti vurğulanıb və hər üç ölkənin bu proseslərə verə biləcəyi töhfələrdən danışılıb.

Görüşdə bölgədəki terrorizm və separatizm fəaliyyətlərinin davam etdirilməsinin regionda sülh və sabitliyin bərqərar olmasına, iqtisadiyyatın inkişafına, eləcə də beynəlxalq layihələrin təhlükəsizliyinə birbaşa təhdid olduğu, eləcə də regiondan kənar qüvvələrin bölgədəki vəziyyəti gərginləşdirməyə yönəlmiş cəhdlərinin qəbuledilməz olduğu da xüsusilə qeyd edilib.

Vurğulanıb ki, münaqişələrin beynəlxalq hüququn norma və prinsipləri, xüsusilə dövlətlərin suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı prinsipləri əsasında sülh yolu ilə nizamlanması zamanın ən vacib amilidir.

Görüşdə Azərbaycan, Gürcüstan və Türkiyə müdafiə qurumları arasında hərbi, hərbi təhsil və hərbi tibb sahələrində əməkdaşlığın inkişaf perspektivləri, müxtəlif növ birgə tədbirlərin keçirilməsi imkanları və digər əməkdaşlıq məsələləri barədə də ətraflı fikir mübadiləsi aparılıb. Üçtərəfli formatda keçirilən təlim və treninqlərin intensivləşdirilməsinin və səhra şəraitində keçirilməsinin əhəmiyyəti qeyd edilib və vurğulanıb ki, birgə təlimlərin keçirilməsi hərbi birləşmələr arasında əməliyyat uzlaşmasının əldə olunmasına, üçtərəfli fəaliyyətlərin yeni mərhələyə keçməsinə zəmin yaradacaq və nəticədə görülən bütün bu tədbirlər regional təhlükəsizliyə böyük töhfə verəcəkdir.

İlk baxışda növbəti onuncu, üçtərəfli formatda müdafiə nazirləri səviyyəsində görüşün keçirilməsində qeyri-adi bir hal yoxdur. Növbəti iclasdır. Müzakirələr aparılır, fəaliyyətlər planlaşdırılır, gələcək planlar barədə fikirlər bölüşülür, tərəflərin maraqlarına cavab verən məsələlər müzakirə edilir.

Bununla bağlı fikir və mülahizələrimi oxucularla bölüşmək istəyirəm.

Azərbaycan-Gürcüstan-Türkiyə üçtərəfli əməkdaşlığı digər sahələrdə olduğu kimi, müdafiə sahəsində də uğurla davam edir. Üç ölkə arasında mövcud əməkdaşlıq formatı dövlətimiz üçün böyük əhəmiyyət kəsb edir. Əsrlər boyu bizim xalqlarımız mehriban qonşuluq və dostluq şəraitində yaşamışdırlar. Bu gün də dövlət başçılarımızın rəhbərliyi ilə bu əlaqələr yüksələn xətt üzrə inkişaf edir. Dövlətlərimiz arasında yüksək səviyyəyə çatmış münasibətlər xalqlarımızın iradəsini və maraqlarını əks etdirir. Bu əməkdaşlıq münasibətləri ölkələrimizin və bütövlükdə regionumuzun inkişafı və təhlükəsizliyin təmin olunması üçün çox vacib şərtlərdən biridir. Hesab edirəm ki, Azərbaycan-Gürcüstan-Türkiyə müdafiə nazirlərinin üçtərəfli formatda keçirilən onuncu görüşü müdafiə qurumlarımız, eləcə də ölkələrimiz, xalqlarımız arasındakı əməkdaşlığı, dostluq və qardaşlıq əlaqələrini daha da möhkəmləndirəcəkdir.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin Azərbaycan-Gürcüstan-Türkiyə arasında müdafiə sahəsindəki mövcud olan əməkdaşlığı və perspektiv imkanlarını yüksək dəyərləndirdiyini də xüsusi olaraq vurğulamaq istəyirəm. Bir daha qeyd etmək istəyirəm ki, qarşılıqlı etimada əsaslanan bu əməkdaşlıq bölgədə sülhün, sabitliyin, davamlı inkişafın, eləcə də xalqlarımızın rifahının təmin olunması baxımından böyük önəm kəsb edir.

Dövlətlərimiz arasındakı əlaqələrin mühüm tərkib hissələrindən biri enerji və nəqliyyat sahəsində əməkdaşlıq perspektivləridir. Bu kontekstdə regional əməkdaşlıq ölkələrimizə böyük fayda gətirir. Birgə həyata keçirilən iri infrastruktur layihələri, Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz boru kəmərləri, Bakı-Tbilisi-Qars dəmir yolu, Cənub Qaz Dəhlizi Azərbaycan-Gürcüstan-Türkiyə arasında uğurlu əməkdaşlığın nümunələridir. Ölkələrimizin birgə həyata keçirdiyi enerji və nəqliyyat layihələri bu gün bir çox ölkələrin enerji və nəqliyyat təhlükəsizliyinə xidmət göstərir və bu baxımdan regionda həyata keçirilən irihəcmli, dünya miqyaslı iqtisadi layihələrin mühafizəsi böyük əhəmiyyətə malikdir.

Onu da qeyd etmək yerinə düşər ki, bu gün müasir dünyada baş verən hadisələr, yeni çağırışlar və təhdidlər qarşılıqlı məsləhətləşmələrin aparılmasını, mövqelərin uzlaşdırılmasını zəruri edir. Bu şəraitdə ölkələrimizin müdafiə potensialı bizim təhlükəsizliyimizə əsas zəmanətdir. Bu baxımdan regionun təhlükəsizliyinə təhdid törədən terrorizmlə, separatizmlə və digər bu kimi neqativ təzahürlərlə mübarizədə səylərin birləşdirilməsi olduqca vacibdir.

Azərbaycan daima Türkiyənin və Gürcüstanın üzləşdiyi problemləri tam ciddiyyəti ilə anlayışla qarşılayır və bütün zamanlarda olduğu kimi, bu gün də bu məsələlərə həssaslıqla, diqqətlə yanaşır. Təbiidir ki, Azərbaycan Respublikası Türkiyənin terrorizmə qarşı qətiyyətli mübarizəsini və Gürcüstanın beynəlxalq səviyyədə qəbul olunmuş ərazi bütövlüyünü daima dəstəkləyir.

Bir məsələni də xüsusi olaraq qeyd etmək lazımdır ki, son zamanlar regiondan kənar bəzi qüvvələrin regional məsələlərə müdaxilə etmək cəhdləri müşahidə edilir. Bəzi qüvvələr məqsədyönlü şəkildə qərəzli və ziddiyyətli bəyanatlar səsləndirirlər. Belə cəhdlər və Ermənistanın məqsədyönlü şəkildə silahlandırılması regiondakı vəziyyətin gərginləşməsinə səbəb olur. Regiondan kənar qüvvələrin Ermənistanı silahlandırmaq cəhdlərinə imkan verilməməsi və şərait yaradılmaması regional sülhün və təhlükəsizliyin təmin edilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir. Artıq açıq-aydın görünür ki, regionda sülhün, sabitliyin, təhlükəsizliyin və iqtisadi inkişafın təmin edilməsinin yolu yalnız mehriban qonşuluq əlaqələrinin qurulmasından, xalqların maraqlarının ədalətli təmin edilməsindən, qarşılıqlı anlaşmadan və etimaddan keçir.

Vurğulamaq istəyirəm ki, hər üç dövlətin Silahlı Qüvvələrinin üzərinə düşən vəzifələrdən biri də bölgədə sabitliyin qorunub saxlanılmasını, həmçinin ölkələrimizi birləşdirən irihəcmli iqtisadi layihələrin təhlükəsiz şəkildə icra edilməsini, xalqlarımızın maddi rifah halının yaxşılaşdırılmasına bəhrələr verməsini təmin etməkdir. Hər üç dövlətin hərbi qulluqçularının iştirakı ilə keçirilən birgə təlimlər məhz sözügedən vəzifələrin müvəffəqiyyətlə yerinə yetirilməsinə xidmət edir.

Hesab edirəm ki, üçtərəfli hərbi əməkdaşlığın daha da möhkəmləndirilməsi və regionda baş verən hadisələrin müştərək olaraq qiymətləndirilməsi məqsədilə mütəmadi olaraq Azərbaycan-Gürcüstan-Türkiyə Müdafiə Nazirliklərinin rəhbərlərinin və nümayəndə heyətlərinin görüşlərinin davam etdirilməsi zamanın tələbidir və zəruridir.

Qeyd etmək istərdim ki, üçtərəfli təlim-məşqlərin və treninqlərin əhatə dairəsinin genişləndirilməsi də vacib amildir. Mühəndis-istehkam sahəsi üzrə təlim və treninqlərin keçirilməsi müasir mərhələdə böyük əhəmiyyət kəsb edir. Bu sahədə geniş imkanlar mövcuddur və keçirilən təlimlərdə istehkamçıların iştirakı, onların peşə bacarıqları ilə bağlı təcrübə mübadiləsinə şərait yaradacaq və nəticədə mühəndis-istehkam bölmələrinin döyüş hazırlığının yüksəlməsində, eyni zamanda, peşəkarlıqlarının artmasında mühüm rol oynayacaqdır.

Bununla yanaşı, hərbi tibb, hərbi təhsil, idman və bu gün dünyada ən çox müzakirə olunan "kibertəhlükəsizlik" sahəsində üçtərəfli əməkdaşlığımızda artıq müsbət dinamika vardır. Sadaladığım istiqamətlərdə əməkdaşlığın genişləndirilməsi, perspektivlərin, mövcud imkanların müzakirəsi məqsədilə bu sahədə çalışan mütəxəssislərin işçi görüşlərinin keçirilməsinin mütəmadi olması da müvafiq istiqamətlərdə nailiyyətlərin əldə edilməsinə, eləcə də fəaliyyətlərimizin əlaqəli şəkildə həyata keçirilməsinə müsbət təsir göstərəcəkdir.

Düşünürəm ki, haqqında danışdığım üçtərəfli əməkdaşlığın davam etdirilməsi və inkişafı üçün yeni layihə və təşəbbüslər üzərində işlər mütəmadi olaraq davam edir.

Hərbi sahədə əməkdaşlıqdan danışarkən keçirilən hərbi təlimlərin əhəmiyyəti də xüsusi vurğulanmalıdır. Bu təlimlər zamanı hərbi qulluqçularımız həm təcrübə mübadiləsi aparır, həm də praktiki vərdişlərini təkmilləşdirir, döyüş hazırlıqlarının səviyyəsini, döyüş tapşırıqlarının icrası zamanı qarşılıqlı uzlaşma şəraitində fəaliyyət göstərmə bacarıqlarını daha da artırır, eyni zamanda, qardaş orduların hərbçiləri ilə dostluq əlaqələri də qururlar.

Azərbaycan, Türkiyə və Gürcüstan arasındakı üçtərəfli əməkdaşlıq formatında ölkələrimizin ordu mənsublarının iştirakı ilə keçirilən Xüsusi Təyinatlı Qüvvələrin "Qafqaz Qartalı", "ETERNİTY" kompüter dəstəkli birgə komanda-qərargah təlimləri, Quru Qoşunlarının və Hərbi Hava Qüvvələrinin iştirakı ilə keçirilən digər təlimlər ölkələrimiz arasında dostluğun və sarsılmaz əməkdaşlığın bariz nümunəsi olmaqla yanaşı, artıq digər ölkələr üçün də nümunə ola biləcək uğurlu regional əməkdaşlıq mexanizminə çevrilmişdir.

Sonda qardaş Türkiyə və mehriban qonşumuz Gürcüstan tərəfinə ölkəmizə göstərdiyi siyasi mənəvi dəstəyə, eləcə də Azərbaycanın haqlı mövqeyinə verdiyi dəstəyə görə minnətdarlıq hissi ilə qeyd etmək istərdim ki, üç dost və müttəfiq ölkə arasında bütün sahələrdə olduğu kimi, müdafiə sahəsində də işgüzar əməkdaşlığın genişlənməsi bundan sonra da xalqlarımızın xoşbəxtliyinə, maraqlarının qorunmasına və dövlətlərimizin güclənməsinə xidmət edəcəkdir.

Əminəm və inanıram ki, müdafiə sahəsində əməkdaşlığımızın genişlənməsi sadəcə ölkələrimiz üçün deyil, eləcə də bölgədə sülhün, sabitliyin möhkəmlənməsinə və təhlükəsizliyin təmin olunmasına böyük töhfələr verəcəkdir. Bu da öz növbəsində regionun gələcəyinin sülh və əmin-amanlıq şəraitində təmin edilməsində əhəmiyyətli rol oynayacaq və baş verə biləcək hadisələrə, ölkələrimizin suverenliyinə yönəlmiş təhdidlərə qarşı daha hazırlıqlı olmağımızı təmin edəcəkdir.

**İsa ELDAROĞLU**
**hərbi jurnalist**

# Şəhidlərin xatirəsinə həsr olunan anım mərasimləri keçirilib



*<u>Torpaqlarımızın ərazi bütövlüyü uğrunda şəhidlik zirvəsinə yüksələn Vətən Müharibəsi qəhrəmanları Elçin Mansurov, Adil İbrahimli, həmçinin şəhid Rəşad Quliyevin xatirəsinə həsr olunan anım mərasimləri keçirilib</u>.*

Heydər Əliyev adına Hərbi İnstitutda keçirilən tədbirlərdə Müdafiə Nazirliyinin və ictimaiyyətin nümayəndələri, hərbi institutun zabit, müəllim və kursant heyəti, şəhidlərin ailə üzvləri, yaxınları, döyüş yoldaşları və məktəblilər iştirak ediblər.

Əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin, Azərbaycanın suverenliyi, müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Müdafiə Nazirliyinin Mətbuat Xidməti xəbər verir ki, anım mərasimlərində çıxış edənlər Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Ordusunun qazandığı tarixi qələbədən, bu şanlı qələbənin qazanılmasında igid oğullarımızın göstərdikləri qəhrəmanlıq və şücaət nümunələrindən söz açıblar.

Tədbir iştirakçılarına şəhidlərimizin şərəfli həyat yolları haqqında məlumat verilib.

Bundan başqa Gədəbəy və Tovuz rayonları ərazisindəki hərbi hissələrdə şəhid ailələri ilə görüşlər keçirilib, qayğıları dinlənilib, həmçinin onları maraqlandıran suallar cavablandırılıb.



Şəhidlərin ailə üzvləri və yaxınları onlara göstərilən diqqət və qayğıya, eləcə də şəhidlərimizin xatirəsinin daim uca tutulduğuna görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə və Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.





# Vətən üçün yaşanan ömür




*<u>Ömür Vətən, xalq üçün yaşananda mənalı olur. Belə yaşamaq haqqı hər yetənə nəsib olmur. Həyatının mənasını, məramını Vətənə şərəfli xidmətdə görən cəsur oğullar bu taleyi yaşayırlar. Vətənpərvər, rəşadətli oğullar tərəfindən Vətən torpaqları həmişə qorunur.</u>*

XX yüzilliyin sonlarında da belə oldu. Vətənimizə qarşı düşmən hücumları başladı. "Böyük Ermənistan" xülyası ilə yaşayanlar qədim tarixi torpağımız olan Qarabağı özlərinə birləşdirmək iddiasına düşdülər. Böyük təxribatlar törədərək, təcavüzkarlıq siyasətini davam etdirdilər. 2016-cı ildə, 2020-ci ildə ərazilərimizdə yenidən təxribatlara əl atdılar. Azərbaycan Ordusu düşmən qüvvələrə layiqli cavablar verdilər. Buna baxmayaraq təxribatlardan əl çəkmədilər. Təkrarən 2020-ci il sentyabrın 27-də cəbhə boyu ərazilərimizə hücum etdilər. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev düşmənə qarşı əks-hücum əməliyyatının keçirilməsi əmrini verdi. Silahlı Qüvvələrimiz və xalqımız qısa müddət ərzində səfərbər oldular.

Vətənə xidmətləri ilə həmişə seçilən Xüsusi təyinatlılar 2016-cı ilin Aprel döyüşlərində olduğu kimi, yenə də düşmənlə mübarizədə qətiyyətli mövqe tutdular. Qarşıya qoyulan döyüş tapşırıqlarını müvəffəqiyyətlə yerinə yetirirdilər.

Xüsusi təyinatlılarda xidmət edən mərd, cəsarətli, qorxmaz igidlərdən biri də Ruslan Mehman oğlu Qəhrəmanov 1988-ci ildə dünyaya göz açıb. Onun atası Mehman Qəhrəmanov sovet qoşunlarının məhdud kontingenti tərkibində Almaniyada gizir rütbəsində xidmət edib. Sonra isə xidmətini Gəncə şəhərində davam etdirib. Birinci Qarabağ döyüşlərində Murovdağ istiqamətində, Ağdərədə, Tərtərdə döyüşüb. Döyüşlər zamanı yaralandı, II qrup Qarabağ müharibəsi əlili oldu.

Ruslanda hərbçi peşəsinə marağı atasının keçdiyi həyat yolu yaradıb. Çox vaxt onu hərbi formada görüb. O da atası kimi hərbçi olmaq qərarına gəlib. Onun bu istəyinə qarşı heç kim çıxmayıb. 1997-ci ildə Cəmşid Naxçıvanski adına Hərbi Liseyə daxil olan Ruslan nümunəvi kursant kimi tanınıb, ata yolunun davamçısı olacağına söz verib. Liseyi bitirdikdən sonra Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə (indiki Heydər Əliyev adına Hərbi İnstitut) daxil olub. Təhsil illərində zabit peşəsinin sirlərini öyrənib. Ali hərbi məktəbi bitirərək "leytenant" rütbəsində Xüsusi Təyinatlı Qüvvələrin tərkibində xidmətə başlayıb.



2016-cı ilin Aprel döyüşlərində baş leytenant Ruslan Qəhrəmanov Talış kəndi istiqamətində gedən döyüşlərdə fəal iştirak edib. Tabeçiliyində olan şəxsi heyətlə düşmənə qarşı qətiyyətlə döyüşüb. Döyüşlərdə iştirak edənlər Ruslanın qəhrəmanlıqla, mərdliklə döyüşdüyünü deyirlər. "Döyüşlər təsdiqlədi ki, Azərbaycan əsgərinin döyüş hazırlığı, yüksək mənəvi-psixoloji hazırlığı formalaşır və bu ordu Ali Baş Komandanın döyüş əmrini qələbə ilə tamamlamağa qadirdir. Biz bu amalla xidmət edirik, əsgərlərimiz bu amalın əsgəridirlər", - Ruslan belə deyərmiş.

Ruslan Qəhrəmanov "kapitan" hərbi rütbəsində bölmə komandiri, təlim-tədris mərkəzində müəllim, hərbi hissənin rabitə rəisinin müavini vəzifələrində xidmət edib.

2020-ci il sentyabrın 27-də kapitan Ruslan Qəhrəmanovun daxil olduğu hərbi hissə Murovdağ istiqamətindən döyüşə qoşuldu. Düşmən müqavimət göstərsə də, döyüşçülərimizin qətiyyəti, cəsarəti düşməni geri çəkilməyə məcbur etdi. Bu döyüşlərdə kapitan Ruslan Qəhrəmanov verilən tapşırıqları müntəzəm yerinə yetirdi.

Kapitan Ruslan Qəhrəmanovun Füzuli-Cəbrayıl istiqamətinə göndərildi. Gərgin döyüşlər davam edirdi. Ağır döyüşlər zamanı Ruslan Qəhrəmanov düşmən gülləsinə tuş gəldi, onu ölümün əlindən xilas etmək mümkün olmadı. Vətən uğrunda şəhidlik zirvəsinə ucaldı kapitan Ruslan Qəhrəmanov.

Vətən müharibəsi qələbə ilə başa çatdı. Torpaqlarımız işğaldan azad edildi. Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə Vətən müharibəsində fərqlənənlər müxtəlif orden və medallarla təltif edildilər.

Kapitan Ruslan Qəhrəmanov Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni, "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə" medallarına layiq görüldü.

Onun 3 körpə balası - Aygün, Mələk və Yusif də həmişə ataları ilə fəxr edəcəklər. Onlar da ataları kimi Vətənə, xalqa layiq övladlar olacaqlar. Bütün bunlar barədə kapitan Ruslan Qəhrəmanovun şəhidlik zirvəsinə ucalmasının 3-cü ildönümünə həsr olunmuş anım mərasimində ətraflı danışıldı. Onun keçdiyi mənalı həyat, döyüş yolu silahdaşları, ictimaiyyət nümayəndələri tərəfindən bir daha xatırlandı. Bildirildi ki, Azərbaycan xalqının tarixinə yeni Zəfər salnaməsi yazan qəhrəmanların xatirəsi heç vaxt unudulmayacaq, qəlblərdə daim yaşayacaqlar.

Mərasim iştirakçıları kapitan Ruslan Qəhrəmanovun məzarı üstünə tər qərənfillər və gül çələngləri qoydular, şəhidlərin ruhuna dualar oxudular.

**Mübariz MUSAYEV**
**"Azərbaycan Ordusu"**

Disput

# “Qəhrəmanları yaşatmaq da vətənpərvərlikdir!”

Vətənpərvərlik Vətənə sevgidi, Vətən sevgisidi, ailədə, məktəbdə aşılanan hissdi. Həm də duyğuları daha böyük amallara qovuşduran hissdi. İllər keçdikcə duyğular da, hisslər də incələşir, Vətən adlı bir müqəddəsliyin səyyarəsinə dönür. Əsgərlərlə Vətənə sevgidən, Vətən sevgisindən danışırıq. Səmimi bir mükaliməlşəmədi. Müstəqil Azərbaycanın müharibə tarixindən danışırıq. Əsgərlər qəhrəmanlarımızı həm yaxşı tanıyır, həm də sevirlər. Onlar qəhrəmanların qəhrəmanlığını Vətənə sevginin müqəddəslik mərtəbəsi adlandırırlar. Sevinirik. Sevinirik ki, tariximizi tarix kimi yaşadırıq, yaşadacağıq...

Tanıtma-çıxışlar vətənpərvərliyin zəmanəti kimi dinlənilir. Əsgərlərin hamısının qəhrəmanlarımızı bunca tanıdıqları, bunca sevdikləri gözəl könül xoşluğudu.

Texniki Universitetin məzunu **əsgər Rəşad Məhərrəmov:**

- Orta məktəbdə müəllimlərimiz bizə qəhrəmanlardan da danışardılar. Onların söhbətlərini xalqımızın tarixi kimi dinləyirdik. Birinci Qarabağ müharibəsinin qəhrəmanları haqqında bilgilərimizi də belə söhbətlərlə genişləndirirdik. Azərbaycanın Milli Qəhrəmanı Koroğlu Rəhimovu mənə atam tanıdıb, onun da haqqında eşitdiklərim yaddaşımdadı.

Xocalı faciəsi onun da düşüncələrini kükrədib, o da ordu sıralarına daxil olub. 1992-ci il aprelin 30-da bölük komandiri vəzifəsinə təyin olunub. Bölük iyunun 13-də Goranboy rayonuna gətirilib. Həmin vaxtlar Azərbaycan Ordusu ilk hücum əməliyyatına - Goranboy əməliyyatına hazırlaşırdı. Bölük Buzluq, Çartaz, Erkəc kəndlərinin azad edilməsi uğrunda döyüşlərdə iştirak etdi. Bölük 15-dən çox düşməni məhv edib, 4-nü əsir alıb. Səhərisi gün Mənəşli kəndini də azad etdilər. Bölük Suqovuşanın, Gülüstanın azad edilməsində də fərqlənib. İyunun 21-də Madagiz uğrunda döyüşlər olub. Tabor komandiri bir neçə döyüşçü ilə mühasirəyə düşüb. Koroğlu kiçik bir qrupla onların köməyinə çatıb. Komandir də, əsgərlər də mühasirədən çıxarılıb, Suqovuşan da alınıb. Koroğlu Rəhimov iyulun 3-də Ağdərə ətrafında, 3-cü sovxozun ərazisində qəhrəmanlıqla şəhid olub. Azərbaycanın Milli Qəhrəmanıdır.

Əsgərlər tanıdıqları, qəhrəmanlığına bələd olduqları Koroğlu Rəhimovu yenidən tanıyırlar - maraqla dinləmişdilər. Sanki qəhrəmanın döyüş yolunun izləyiciləri olmuşdular...

Memarlıq və İnşaat Universitetinin məzunu **əsgər Elçin Allahverdiyev:**

- Yusif Mirzəyev Ağdərə ətrafında gedən döyüşlərdə iştirak edirdi. Cəsarəti, qorxmazlığı ilə sevilən kapitan Yusif Mirzəyevi Şahin Musaoğlu ədəbiyyatda da, musiqidə də yaşatmaq istəyib. Sağlığında yazılmış mahnını qəhrəmanın özü eşidə bilməyib.

Yusif Mirzəyev Naxçıvanın Babək rayonunun Böyükdüz kəndində anadan olub. Naxçıvan Rabitə Qovşağında işləyib, Azərbaycan Xalq Təsərrüfatı İnstitutunda təhsil alıb. Azərbaycanın dövlət müstəqilliyinin bərpa edilməsinin fədailərindən biri olub. 1991-ci ildə zabit kimi ordu sıralarına daxil olub. Goranboy əməliyyatı onun ilk döyüşü olub. Yusif hərbi hissə komandirinin müavini təyin edilib. O, bu əməliyyatda xüsusi qabiliyyətləri ilə fərqlənib. Döyüşçülər onun şəxsi xarakterini də sevirlər. Ağdərə əməliyyatında Yusif Mirzəyevin başçılıq etdiyi 14 nəfərlik qrup 17 kəndin işğaldan azad edilməsində şücaətlə döyüşüb. Döyüşlərdən birində mühasirəyə düşüblər. Yusifin çevikliyi, hadisələrə vaxtında və gərəkli qərar vermə bacarığı ilə mühasirədən çıxa biliblər.

1993-cü il fevralın 19-da Ağdərədə ağır döyüşlər başlayıb. Düşmən çox olduğuna görə döyüş olduqca gərginləşib. Yusif Mirzəyev döyüşçüləri mühasirədən çıxardanda qəhrəmanlıqla həlak olub. Azərbaycanın Milli Qəhrəmanıdır.

**Əsgər Elvin Məmmədkərimov** Türkiyədə ali təhsil alıb. Disputdan əvvəl söhbətləşəndə erudisiyalı, məlumatlı olduğunu duymuşduq. Əmin idik ki, disputda da fəal olacaq. Duyumumuz gerçəkləşdi...

- Azər Abdullazadə Tərtər rayonunun Cəmilli kəndində anadan olub. Orta təhsil alıb, hərbi xidmətə çağırılıb. O da digər əsgər yoldaşları kimi döyüşlər arzulayıb ki, torpaqlarımızı işğaldan azad edək. Tərxis olunmasına üç gün qalmış İkinci Qarabağ müharibəsi başlayıb. Tankçı idi. Xidmət etdiyi hərbi hissə Füzuli istiqamətində döyüşlərə cəlb olunmuşdu. Yaralanmışdı. Yaraları ağır deyildi. Hospitala təxliyə edilmişdi. İsrarlı xahişi ilə yenidən döyüşlərə qayıtmışdı.



Hələ hərbi xidmətə gəlməmiş atam bu qəhrəman haqqında da sevgilərlə danışırdı. Sonralar internetdən onun döyüşləri haqqında əlavə məlumatlar da öyrəndim. Azər döyüşlərin birini qürurla xatırlayır, bir tankçının timsalında Azərbaycan əsgərinin hünəri kimi xatırlayır: "Döyüş yoldaşım düşmən tankı ilə qarşı-qarşıya gəlmişdi. Həmin vaxt o, cəmi bir neçə saniyə qabağa düşərək düşmən tankını məhv edə bildi. Düşmən tankı bir mərmi də ata bilmədi...".

**Əsgər İsgəndər İsgəndərli** əsgər yoldaşının fikrini səmimiyyətlə tamamlayır:

- Azər Abdullazadənin daxil olduğu bölük Cəbrayıl istiqamətində döyüşürdü. Sizin qəzetdə bir ifadə mənə də xoş ovqat verib: Azərbaycan əsgəri döyüşə-döyüşə Qələbəyə yaxınlaşırdı. Tankçılarımız da rəşadətlə döyüşürdülər. Minalanmış sahələrdən də keçirdilər. Düşmənin komanda məntəqələrinin, dayaq məntəqələrinin dağıdılmasında, döyüş maşınlarının, canlı qüvvəsinin məhv edilməsində tankçılarımızın şücaətləri indi tarixdir.

Cəbrayıl uğrunda döyüşlər gedirdi. Ağır döyüşlərdə çoxlu sayda düşmən öldürülmüşdü, onlarla zirehli texnikası məhv edilmişdi. Düşmən sığınacaqlara doluşubmuş. Döyüşlər şiddətlənəndə sığınacaqlardan da çıxıb qaçıblar. Onda da xeyli düşməni məhv ediblər.

Azər tankın içində hədəfə alındıqlarını bildirən siqnal səsini eşidib. Tankları iki tərəfdən nişana alınıbmış. Onlardan birini vura biliblər. Düşmənin ikinci tankı onların tankını vurub. Tankda üç nəfər olublar. Tank parçalanıb, tankın komandiri leytenant Murad Nağıyev şəhid olub. Azər Abdullazadəni tankın içindən ağır yaralı olsa da, sürücü-mexanik Elsevər Hümbətli onu çıxardıb...

Gicgahından girən qəlpə Azər Abdullazadənin sağ gözünü töküb...

Əsgər Azər Abdullazadə Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə "Vətən Müharibəsi Qəhrəmanı" adına layiq görülüb. 19 yaşında...

**Əsgər Nihat Abbasov:**

- Ramazan Hudulov 1994-cü ildə Balakən rayonunun Qaysa kəndində anadan olub. Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini (indiki Heydər Əliyev adına Hərbi İnstitut) bitirib. 2016-cı ildən müxtəlif hərbi hissələrdə xidmət edir.

İkinci Qarabağ müharibəsi başlayanda kapitan Ramazan Hudulovun xidmət etdiyi bölük Xocavənd istiqamətində döyüşlərə göndərilib. Düşmənin sığındığı postu azad ediblər. Sonra Füzuli istiqamətində döyüşlərə cəlb olunublar. Füzuli rayonunun Dövlətyarlı kəndində yüngül yara alsa da, döyüşləri davam etdirə bilib. Düşmən dalbadal iki minaatan mərmisi atıb, birincisindən yayınıb, ikincisi yaxınlarına düşüb - iki metr aralıya. Ramazan bel nahiyyəsindən 4 qəlpə yarası alıb. Özünün ciddi xahişi ilə döyüşü davam etdirməsinə icazə veriblər...

Bölükləri Daşaltı səmtinə göndərilib. Şuşanın işğaldan azad edilməsində Daşaltının ermənilərdən təmizlənməsi olduqca vacib idi. Müəyyən qədər məsafəni texnikalarla gediblər, sonra piyada. 50 nəfərlik heyətlə dağ, dərə və sıx meşəliklərlə 20 kilometrə qədər yolu piyada getdikdən sonra Daşaltı kəndinə yaxınlaşıblar. Dayanıb əmr gözləyiblər. Səhərə yaxın hücum əmri verilib. Hücum başlayanda tabor komandiri qol nahiyyəsindən ağır yaralanıb, onu döyüşdən çıxardıblar, təxliyə ediblər. Onda kapitan Ramazan Hudulov tabor komandirini əvəz edib. Döyüş planını şəraitə uyğun yeniləşdiriblər. Ətraf yüksəklikləri dövrələmə üsulu ilə alıblar. Piyada getdikləri üçün ağır silahları olmayıb, yalnız qumbaraatanları olub. Onlara artilleriya da dəstək verib. Bir müddət döyüşəndən sonra düşmənin xeyli sayda itkisi olub, qalan hissəsi isə qaçıb.

**Əsgər Vüqar Bədəlov:**

- Qəhrəmanlıq həmişə qələbəyə aparıb. Azərbaycan əsgərinin döyüş əzmi, qələbə ruhu qələbələrə aparırdı. Kapitan Ramazan Hudulov 27 nəfərlik qrupla irəliləyərkən minalanmış sahəyə düşüblər. 5 nəfəri şəhid olub, 13 nəfəri yaralanıb. Yaralıları, şəhidləri təxliyə etdikdən sonra döyüşə-döyüşə Daşaltı kəndinə giriblər. Kəndi ermənilərdən təmizləyiblər.

Kapitan Ramazan Hudulovun başçılıq etdiyi qrup qayalıqlardan keçərək düşməni arxa tərəfdən mühasirəyə alıb. Xeyli sayda texnikasını zərərsizləşdirib, canlı qüvvəsini məhv edib. Sağ qalanları qaçıb. Səhər saat 8-də başlayan əməliyyat axşam saat 6-da qələbə ilə başa çatıb...

Kapitan Ramazan Hudulov Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə "Vətən Müharibəsi Qəhrəmanı" adına layiq görülüb...

Türkiyənin Adana Universitetinin **məzunu Faiq Həsənov:**

- Zaur Nudirəliyev Zabrat qəsəbəsində təhsil almışdı, Cəmşid Naxçıvanski adına Hərbi Liseyi bitirmişdi, Türkiyə Ali Hərbi Hava Qüvvələri Məktəbində təyyarəçi ixtisası almışdı. Azərbaycan Hərbi Hava Qüvvələrində 20 il müddətində müxtəlif vəzifələrdə xidmət etmişdi. Bir sıra döyüş üsullarını təkmilləşdirmişdi, sonra uğurla sınaqlardan keçib, döyüşlərdə yerinə yetirmişdi. Polkovnik Zaur Nudirəliyev hərbi təlimlərdə "Su-25" təyyarələrinin tam döyüş gücündən məharətlə istifadə edirdi. Bacarıqlı pilot nişangahdan istifadə etmədən ancaq riyazi üsullarla bombaların atılmasının yeni üsulunu icra etmişdi. NATO standartlarına uyğun bu üsul digər təyyarəçilərə də aşılanmışdı.

"Su-25" də bombardmançı təyyarəsi olduğu üçün aşağı hündürlükdə uçur. Bu təyyarə aşağı və orta hündürlüklərdə uçarsa, düşmənin hava hücumundan müdafiə vasitələrinin onu vurması ehtimalı böyük olur. Zaur Nudirəliyevin təklifləri əsasında "Su-25" hücum təyyarəsinin göstəricilərindən məharətlə istifadə olundu və nəticədə yeni bir döyüş üsulu yarandı. "Su-25" təyyarəsinin bomba atışının tam dəqiq olması üçün aşağı, orta hündürlükdən yox, yuxarı hündürlükdən istifadə olundu. Bu üsul Vətən müharibəsində geniş tətbiq edildi...

**Əsgər Yediyar Hacıyev:**

- Zaur Nudirəliyevin idarə etdiyi "Su-25" təyyarəsi döyüş tapşırığını yerinə yetirmək üçün Cəbrayıl istiqamətinə göndərildi. Həmin ərazidə Ermənistan Hərbi Hava Qüvvələrinin Hava Hücumundan Müdafiə Qoşunlarının vasitələri olduğu ehtimal edilirdi. Zaur Nudirəliyevin idarə etdiyi təyyarə həmin ərazidə təyin olunmuş hədəfə yaxınlaşanda idarəetmə məntəqəsinə Ermənistan Hava Hücumundan Müdafiə Qoşunlarının müdafiə vasitələrinin hazır vəziyyətə gətirilməsi barədə operativ məlumat daxil olmuşdu. Buna görə də dərhal onlara geri qayıtmaq tapşırığı verilmişdi. Həmin dəqiqədən sonra Zaur Nudirəliyevlə əlaqə dayanmışdı, pilot çağırışa cavab vermirdi. "Su-25" təyyarəsi Ermənistan Hava Hücumundan Müdafiə Qoşunları tərəfindən vurulmuşdu. Həmin zərbə təyyarənin katapult oturacağını zədələməmişdi ki, pilotun xilas olmaq ehtimalı olub. Ancaq həmin günlərdə Cəbrayıl şəhəri və onun ətraf yaşayış məntəqələri istiqamətində şiddətli döyüşlər getdiyi üçün o, paraşütlə eniş etsəydi, Ermənistan Silahlı Qüvvələrinin nəzarətində olan ərazilərə düşərdi. Bu, əsirlik olardı. Ona görə də polkovnik Zaur Nudirəliyev təyyarəni bütün süratı ilə Ermənistan Ordusunun bir qrup canlı qüvvəsinin cəmləşdiyi yerdə zirehli nəqliyyat vasitəsinə çırpır. Qəhrəman ölümü ilə düşmənin onlarla canlı qüvvəsini, döyüş texnikasını məhv edir...

Polkovnik Zaur Nudirəliyev Vətən Müharibəsi Qəhrəmanıdır...

Qürurlanırıq ki, əsgərlərimiz qəhrəmanlarımızı belə tanıyırlar, belə sevirlər. Onların davamçıları da belə xidmət edəcəklər. Azərbaycan gəncliyi bu ruhda formalaşır. Azərbaycan naminə!.. Qəhrəmanları yaşatmaq da vətənpərvərlikdir!..

**Mayor**
**Ceyhun CƏFƏRLİ,**
**baş leytenant**
**Mahmud MÖHBALIYEV**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

**(İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə kömək)**

**Mövzu:** Həmrəyliyimiz birliyimizin və varlığımızın qarantıdır. 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi Günüdür.

**Suallar:**

**1. 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi Günüdür.**

**2. Dünya azərbaycanlılarının vahid birliyinin bərqərar olunması.**

## 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi Günüdür

Hər bir xalqın milli varlığını şərtləndirən əsas amillərdən biri onun etnik-siyasi mütəşəkkilliyi, milli həmrəyliyidir. Azərbaycanlılar minilliklər boyu özlərinin tarixi torpağı olan Azərbaycan ərazisində yaşayaraq, bəşər sivilizasiyasına böyük töhfələr veriblər. Müharibələr, inqilablar, hərbi münaqişələr, dünyada gedən ictimai-siyasi proseslər nəticəsində Azərbaycan parçalanıb, azərbaycanlıların bir qismi yurd-yuvalarından didərgin salınıb, deportasiyalara məruz qalıb, iş tapmaq, təhsil almaq məqsədi ilə doğma Vətəni tərk edərək başqa ölkələrdə məskunlaşıblar.

Ölkəmizin Sovet Rusiyası tərəfindən işğalından sonra uzun bir dövr Vətəndə yaşayan azərbaycanlılar başqa ölkələrdə məskunlaşmış həmvətənliləri ilə görüşmək, əlaqələr yaratmaq imkanından məhrum olublar. Sovet rejiminin zəifləməyə başladığı 1989-cu illərin sonlarında Azərbaycan xalqı öz həmvətənləri ilə əlaqələr yaratmaq üçün səylərini artırdı. 1989-cu ildə Azərbaycan Xalq Hərəkatının fəalları azərbaycanlıların yaşadığı tarixi ərazini ikiyə bölən keçmiş SSRİ və İran sərhədinin Naxçıvan Muxtar Respublikasının Ordubad və Şərur rayonları arasındakı hissəsini sökdü. Son iki yüz ildə ilk dəfə olaraq indiki İran ərazisində və Azərbaycan Respublikasında yaşayan azərbaycanlılar Araz çayını keçərək görüşdü. Bu vaxt İstanbulda türkdilli xalqların Konfransı keçirilirdi və qeyd olunan Konfransda dünya azərbaycanlılarının həmrəyliyinin qeyd olunmasına qərar verildi.

Tarix dəfələrlə sübut edib ki, milli birliyi formalaşdırmaq, eyni hədəf uğrunda mübarizəni təmin etmək üçün böyük liderlərə ehtiyac duyulub. 16 dekabr 1991-ci ildə Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin sədri Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev dünya azərbaycanlılarının birliyini yaratmağın əhəmiyyətini nəzərə alaraq, dekabrın 31-ni Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü elan etdi. Bu müqəddəs missiyanı həyata keçirən müstəqil Azərbaycan Respublikasının qurucusu Ulu Öndərin çoxmilyonlu azərbaycanlıları birləşdirmək istəyi, arzusu, amalı, bu tarixi hadisənin bünövrəsini qoymuşdur.

Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü dünyanın 70-dən çox ölkəsində yaşayan 50 milyondan artıq azərbaycanlılarla əlaqələr qurmaq, onlar arasında birlik və həmrəylik yaratmaq işində mühüm rol oynayır. Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününün qeyd edilməsi bütün dünya azərbaycanlıları tərəfindən artıq bir zərurətə və mənəvi ehtiyaca çevrilmişdir. Həmrəylik Günü Azərbaycan diasporu üçün ən mühüm bayrama çevrilib. İndi Həmrəylik Gününü hətta milliyyətcə azərbaycanlı olmayıb, lakin Azərbaycanda doğulub böyümüş, Azərbaycan əsilli diaspor nümayəndələri də qeyd edirlər.

Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü birlik, Azərbaycana məhəbbət, milli-mənəvi dəyərlərimizə hörmət və Vətənə bağlılıq hisslərini özündə təcəssüm etdirir. Həmrəylik bayramı, ilk növbədə, azərbaycançılıq ideologiyasına söykənir. Son illərdə bu ideologiya müstəqil Azərbaycanın çiçəklənməsində və dünya azərbaycanlılarının özünüdərkinə təkan verən güclü bir amilə çevrilmişdir. Dünyanın hər yerindən səsi gələn həmvətənlərimiz azərbaycançılıq amalı ətrafında milli birlik, həmrəylik nümayiş etdirir, ümummilli məqsədlər naminə səfərbər olunurlar.

Azərbaycançılıq ideologiyası ətrafında birləşən hər bir soydaşımız harada yaşamasından asılı olmayaraq ana Vətənin inkişafına, onun dünya birliyində layiqli yer tutmasına və tanınmasına, mədəniyyətimizin təbliğinə, ölkəmizlə bağlı həqiqətlərin beynəlxalq ictimaiyyətə obyektiv şəkildə çatdırılmasına töhfə verməyi özünə mənəvi borc sayır.

## Dünya azərbaycanlılarının vahid birliyinin bərqərar olunması

Qədim tarixə malik xalqımız bu əlamətdar bayramı uzun illərdən bəri yaranmış, qorunub saxlanılmış ənənələrinə, mədəniyyətinə, tarixi köklərinə xas olan xoş amallarla, duyğularla keçirir. Bu bayram ildən-ilə daha geniş vüsət alır, ürəklərində Vətən eşqi, milli-mənəvi birlik hissləri bəsləyən hər bir soydaşımız tərəfindən güclü dəstək alır. İlk dəfə həmrəylik və birlik arzuları ilə dillərə gətirilən və rəsmiləşdirilən bu bayram ürəklərdə uzun illərdən bəri qorunan azadlıq və birlik hisslərinin təzahürüdür.

Ulu Öndər Heydər Əliyevin ölkəmizdə xalqın təkidli tələbi ilə siyasi hakimiyyətə qayıdışından sonra Azərbaycan dünyanın müxtəlif ölkələrində məskunlaşmış soydaşlarımız üçün milli iftixar mənbəyi, mənəvi dayaq və güc mənbəyi olmuşdur. Dahi şəxsiyyətin dünya azərbaycanlılarının həmrəyliyinin birliyinin təmin edilməsi ilə bağlı ideyaları bu gün də aktualdır. Dünya azərbaycanlılarının həmrəyliyi, onların təşkilatlanması prosesini daim diqqət mərkəzində saxlayan Ulu Öndərin uzaqgörənliyi xalqı öz ətrafında birləşdirməyə qadir olduğunu nümayiş etdirdi. Ulu Öndər Heydər Əliyev 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə xarici ölkələrdə yaşayan azərbaycanlılara müraciətində deyirdi: "Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününün dövlət bayramı kimi qeyd edilməsi xalqımızın milli-azadlıq mübarizəsinin məntiqi nəticəsi olaraq artıq xoş ənənəyə çevrilmişdir. Qədim və zəngin tarixə malik olan Azərbaycan xalqının dirçəlişini, tərəqqisini və milli birliyini əks etdirən, onu müstəqil dövlətçilik uğrunda müqəddəs və məsuliyyətli mübarizəyə səfərbər edən Həmrəylik Günü hər bir azərbaycanlı üçün inam və ümid anıdır. Hal-hazırda dünyanın müxtəlif ölkələrində milyonlarla azərbaycanlı yaşayır, işləyir, fəaliyyət göstərir. Buna baxmayaraq onların milli-mənəvi varlığını yaşadan yeganə bir dövlət var. Bu, müstəqil, suveren Azərbaycan Respublikasıdır. Dünya azərbaycanlılarının birliyi və həmrəyliyi ideyasının əsasını da məhz Azərbaycan dövlətçiliyinə, xalqımızın dilinə, dininə, milli-mənəvi varlığına və ümumbəşəri dəyərlərə hörmət, onların daim qorunmasına, yaşamasına qayğı təşkil edir".

Dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızın Azərbaycan Respublikası ilə əlaqələrinin daha da möhkəmləndirilməsi, onların birliyinin və həmrəyliyinin təmin olunması məqsədilə 2001-ci il noyabrın 9-10-da Bakıda Dünya Azərbaycanlılarının I Qurultayı keçirildi. Qurultayda dərin məzmunlu nitq söyləyən Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev dünya azərbaycanlıları arasında milli birliyin və həmrəyliyin təmin edilməsi, Azərbaycan dövləti və dünya azərbaycanlılarının əlaqələrinin möhkəmləndirilməsi, qarşıya çıxan problemlərin həllində səylərin birləşdirilməsi zərurəti, ana dilinin, milli-mənəvi dəyərlərin qorunub saxlanılması, inkişaf etdirilməsi haqqında fikirlərini bildirmişdir. "Hər bir insan üçün onun milli mənsubiyyəti onun qürur mənbəyidir. Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!" Ulu Öndərin bu kəlamları hər bir həmvətənimiz üçün milli qürur rəmzinə çevrilmişdir.

Ulu Öndər Heydər Əliyevin dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızın azərbaycançılıq ideyası ətrafında birləşməsi və güclü diasporumuzun yaradılması siyasətini Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev uğurla davam etdirir. Soydaşlarımız Vətəndə baş verən ictimai-siyasi prosesləri diqqətlə izləyir və cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın əldə etdiyi heyrətamiz uğurlarla fəxr edirlər. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin 8 fevral 2006-cı il tarixli Sərəncamı ilə 2006-cı il martın 16-da Bakı şəhərində Dünya Azərbaycanlılarının II Qurultayının keçirilməsi diaspor quruculuğu işinə yeni nəfəs vermişdir. Azərbaycan Diasporunun təşkilatlanması prosesi bu gün daha sürətlə gedir.

Dünya Azərbaycanlılarının I Qurultayında yaradılmış Əlaqələndirmə Şurasının 2008-ci il dekabrın 18-də Bakıda keçirilmiş iclası, toplantıda Dünya Azərbaycanlılarının Xartiyasının qəbulu birlik və mütəşəkkilliyinin artması, tarixi Vətənlə əlaqələrinin möhkəmlənməsi, diaspor potensialının möhkəm amilə çevrilməsini göstərməklə yanaşı, müstəqil Azərbaycanın bütün dünya azərbaycanlıları üçün cazibə mərkəzi olduğunu da bir daha təsdiqlədi.

Həmrəylik Günü milli birlik, Azərbaycana məhəbbət, milli-mənəvi dəyərlərimizə hörmət, Vətənə bağlılıq hisslərini özündə təcəssüm etdirir. Bu birliyi Vətən müharibəsində, Qarabağ iqtisadi rayonunda lokal xarakterli antiterror tədbirlərində bir daha gördük. Ermənistan silahlı qüvvələri dəfələrlə Azərbaycan ərazisində hərbi təxribatlar törətdi və hər dəfə Azərbaycan Ordusu bu hücumların qarşısını qətiyyətlə aldı. 2020-ci ilin 27 sentyabr tarixində Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazilərini raket atəşinə tutması 44 günlük Vətən müharibəsinin başlamasına səbəb oldu. Xalq müharibənin ilk günündən dövlət başçısı, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin uğurlu siyasəti nəticəsində torpaqlarımızın işğaldan azad ediləcəyinə əmin idi. İkinci Qarabağ müharibəsi bu əminliyi bir daha təsdiqlədi. Öz liderinin ətrafında dəmir yumruq tək birləşən xalq ordusuna arxa-dayaq oldu, düşmən bu gücün qarşısında cəmi 44 gün dayana bildi. 30 ilə yaxın işğal altında inləyən Azərbaycan torpaqları düşmən tapdağından azad edildi. 44 günlük Vətən müharibəsindən sonra Qarabağ iqtisadi rayonunda yaşayan etnik ermənilərin məskunlaşdıqları ərazilərdəki qondarma rejimin tör-töküntülərinin, qeyri-qanuni hərbi birləşmələrin və onları himayə edən separatçıların müharibədən keçən zaman ərzində həyata keçirdikləri təxribatları ölkəmizə sözügedən bölgədə lokal xarakterli antiterror tədbirləri həyata keçirməkdən başqa çıxış yolu qoymurdu. Azərbaycan Respublikasının Konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə 19 sentyabr 2023-cü ildə Qarabağ iqtisadi rayonunda lokal xarakterli antiterror tədbirlərinə başlanıldı. Azərbaycan Ordusu üç il əvvəl Vətən müharibəsi dövründə cəmi 44 gün ərzində düşməni kapitulyasiya aktına imza atmağa məcbur etdiyi kimi, 23 saat 44 dəqiqə davam edən antiterror tədbirləri keçirməklə düşməni ağ bayraq qaldırmağa məcbur etməsi bir daha bizim gücümüzü bütün dünyaya göstərdi. Dövlət başçısının vətənpərvərliyi xalqımızı torpaqlarımızın azadlığı uğrunda mübarizədə həmrəy etdi. Siyasi əqidəsindən, statusundan, vəzifəsindən, milli mənsubiyyətindən asılı olmayaraq hər bir Azərbaycan vətəndaşı milli həmrəylik nümayiş etdirdi. Dünyanın bütün ölkələrində yaşayan azərbaycanlılar tarixdə görünməmiş dərəcədə fəallıq göstərdilər, daha sıx birləşdilər. Yaşadıqları ölkələrdə Azərbaycanın haqq səsinin eşidilməsi üçün səylərini əsirgəmədilər.

2022-ci ildə Dünya Azərbaycanlılarının V Qurultayı - Zəfər qurultayı Şuşada keçirildi. Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev 65 ölkədən 400-dən çox diaspor nümayəndəsi və qonağın qatıldığı qurultaydakı nitqində dedi: "...Buraya gələrkən 2001-ci ildə keçirilmiş ilk qurultayı xatırlayırdım. Bildiyiniz kimi, Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə ilk qurultay 2001-ci ildə keçirilib. O, dərin məzmunlu çıxışında, eyni zamanda, təbii ki, Qarabağ problemi ilə bağlı öz fikirlərini bildirmişdi və demişdi ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək, işğal altında olan torpaqlar işğaldan azad ediləcək və Azərbaycan xalqı öz dədə-baba torpaqlarına qayıdacaqdır. Biz - Ulu Öndərin davamçıları bu sözləri gerçəyə çevirdik və V Qurultaya hazırlıq işləri başlayarkən mənə məruzə edildi və mən dedim ki, bu qurultay mütləq Şuşada keçirilməlidir. Əminəm ki, qurultay iştirakçıları da buna çox müsbət yanaşıblar və böyük həvəslə Şuşaya, qədim Şuşaya, bizim mədəniyyətimizin paytaxtı olan Şuşaya gəlmişlər. Şuşa da öz doğmalarını bax, belə günəşli hava ilə qarşılayır və bu, bir daha onu göstərir ki, bura bizim tarixi torpağımızdır. Hətta təbiət, günəş də bizimlə həmrəydir...".

Azərbaycan dövlətinin diaspor siyasəti, həmvətənlərin birlik və həmrəyliyinin möhkəmləndirilməsi, onların da mütəşəkkil formada təşkilatlanması prosesi özünün yeni mərhələsinə qədəm qoyub. Artıq dünya azərbaycanlıları yaşadıqları ölkələrin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında daha fəal rol oynayır, respublikamızla qarşılıqlı əlaqələrin genişlənməsinə böyük töhfə verir, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında, zəngin mədəni irsimizin təbliğində, təcavüzkar erməni dairələrinin ideoloji təxribatlarının qarşısının alınmasında qətiyyət nümayiş etdirirlər. Azərbaycanlıların yaşadıqları hər bir ölkədə bir neçə diaspor təşkilatı var və bu təşkilatlar arasında koordinasiya işi aparılır, birlik, həmrəylik var. Biz ölkə daxilində də, xaricdə də birlik nümayiş etdirməliyik və unutmamalıyıq ki, gücümüz birliyimizdədir. Bu gün Azərbaycanda vətəndaş cəmiyyəti birlik nümayiş etdirərək, vahid amal uğrunda çalışır. Ölkəmizin gələcəyi ilə, strateji istiqamətlə bağlı cəmiyyətimizdə fikir ayrılığı yoxdur. Dövlət müstəqilliyi, iqtisadi müstəqillik, sosial məsələlərin həlli və digər məsələlər ətrafında cəmiyyətdə vahid fikir var.

Bu gün hər bir azərbaycanlı Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə yeni zirvələrə doğru inamla addımlayacağına tam əmindir. Bu həmrəylik bizi yeni-yeni qələbələrə aparacaq.

31 Dekabr Azərbaycan xalqının tarixində ən yaddaqalan, birliyimizin təcəssümü olan Dünya Azərbaycanlılarının Həmrəyliyi Günüdür!

**İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi**

## "Zəfər Günü" münasibətilə "Əsgərə məktub" layihəsi çərçivəsində keçirilən silsilə tədbirlər yekunlaşıb






*Müdafiə Nazirliyinin tədbirlər planına əsasən, 8 Noyabr - Zəfər Günü münasibətilə Kürdəmir, Lənkəran, Masallı, Göygöl, Samux, Şəmkir rayonları, eləcə də Bakının Binəqədi, Nəsimi, Səbail, Yasamal və Xətai rayonlarında, Sumqayıt şəhərində, həmçinin Heydər Əliyev adına Hərbi İnstitutda "Əsgərə məktub" layihəsi çərçivəsində keçirilən silsilə tədbirlər başa çatıb.*

Rayon İcra Hakimiyyətləri, "Azərbaycan Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri" İctimai Birliyinin və Gəncə Qarnizonu İdeoloji və Mədəniyyət Mərkəzinin birgə təşkilatçılığı ilə keçirilən tədbirlərdə İcra hakimiyyətlərinin əməkdaşları, şəhid ailələrinin üzvləri, döyüşlərdə yaralanmış hərbi qulluqçular, müharibə veteranları, ümumtəhsil məktəblərinin şagirdləri və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Tədbirlərdə çıxış edənlər iştirakçıları Zəfər Günü münasibətilə təbrik edərək qeyd ediblər ki, 8 Noyabr Azərbaycan tarixinin qızıl səhifəsi, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə xalqımızın və şanlı Azərbaycan Ordusunun yazdığı qəhrəmanlıq dastanıdır.

Tədbirdə Gəncə Qarnizonu İdeoloji və Mədəniyyət Mərkəzi əməkdaşlarının təqdim etdiyi mahnılar, şagirdlərin söylədiyi şeirlər, vətənpərvərlik marşlarının sədaları altında hərbi geyimli gənclərin nümunəvi keçidləri sakinlər və aksiya iştirakçıları tərəfindən maraqla qarşılanıb.

Aksiya zamanı qeyd olunub ki, respublikamızın şəhər və rayonlarında həyata keçirilən "Əsgərə məktub" layihəsi yeniyetmələrin vətənpərvərlik ruhunun formalaşması və gənclərdə hərbi xidmətə marağın artması baxımından əhəmiyyətli layihədir.

Layihə iştirakçıları olan sakinlər və məktəblilər tanımadıqları əsgərlərə məktublar yazaraq onlara arzu və istəklərini bildiriblər.

Hər məktub bir ürəyin diktəsidir, hər məktub vətəndaşların Vətənimizə sevgisi, ordumuza, ordumuzun əsgərinə səmimi müraciətidir. Bu müraciətlər sıx ordu-xalq birliyinin təcəssümü, eyni zamanda, Vətənimizi qoruyan ordumuza sevgi və vətənpərvərlik nümunəsidir.

Azərbaycan Ordusu sıralarında xidmət edən əsgərlərimizə arzular yazılmış məktubların Gəncə Qarnizonu İdeoloji və Mədəniyyət Mərkəzi vasitəsi ilə hərbi qulluqçulara çatdırılması təşkil edilib.

**İsa İSMAYILOV**
**Bakı şəhəri**

*Ovqat*

## Tərifin sığan deyil sözə, İsa bulağı!..

"Kitabi-Dədə Qorqud" dastanlarında bulaqlar "şırıl-şırıl qayalardan çıxan su" kimi tərif edilib. Qayalardan süzülüb gələn suya - bulağa bunca mehr-ülfət, bunca qədirqiymət həmişə dünənlərə böyük sədaqətlə yaşadılıb, müqəddəsliyə ünvanlanmış xeyir-dua kimi bütün zikrlərin salavatı olub.

İlk daşları daşlar üstünə qoyulanda bu şənliyə Şuşa dedilər. Boyunu sevdilər, odunu-közünü sevdilər, özünü sevdilər. Dan yeri sökülәndə bülbüllərin cəhcəhinə oyananların ruhunun cəfakeşiydi Şuşa. Aqillər,loğmanlar Şuşanın havasını Gülüstani-bağı-İrəmin havasına tən bilirdilər. Möcüzə gözəllikləri Cıdır düzündən Qarqara enən, nabələdlərin uğuruna dönən cığırların yan-yörəsində cücərən, boy göstərən, böyüyən çiçəklərin ətri-rayihəsi tamamlayardı. O vaxtlarda dağlarını duman bürüyəndə də gözəllik bircəsiydi Şuşa, duman çəkiləndə də ...

Camaat illərlə dəniz səviyyəsindən 1600 metr yüksəklikdə, meşədə çağlayan bulaqların birindən xəbərsiz olub. İsa adlı rəncbər rastlaşdığı bulağın duruluğundan, soyuqluğundan, bir də bənzərsiz zümzüməsindən heyrətlənib. Bu heyrət müqəddəs heyrət olub. İsanın özü bulağa "Buz bulaq" deyib, camaat - İsanın bulağı, İsa bulağı...

Təzəlikcə ad almış düzdə də - Cıdır düzündə də, bu ucalığa gətirən yollarda da, ucalığın ətəyindən yapışan meşələrdə də səssizliyi bir ilahi səs gödəldib. Bu səs avazıydı, bu səs bənzərsizliyiydi, bu səs uca ruhların pıçıltısıydı. Ötəni yolundan eləyirdi, gedəni dayandırırdı...

Topxanada ov ovlayıb, quş quşlayanlar da yorğunluğunu bu səs-avazın qüdrətiylə çıxardırdılar. Bu səs bulaq səsiydi, bu avaz bulaq avazıydı - İsa bulağının səsiydi, İsa bulağının avazıydı!




Zaman-zaman qonaqlı-qaralı olub İsa bulağı.

İsa bulağının avazı Hacı Hüsünün, Bülbülcanın, Məşədi İsinin, Dəli İsmayılın, Keçəçi oğlu Məhəmmədin, Seyidin, Cabbarın, Xanın, ... , Mürsəl Məşədi Süleyman oğlunun avazıyla qoşalaşıb. Yaxın-uzaq ellər axışıb bura gələrdi ki, İsa bulağının hüsnünü doyunca görsün, avazını ayrıca da dinləsin, dinşəsin, möcüzə avazlarla qoşalaşanda da...

İsa bulağı illərlə dərdiyə qardaş olub, bimara - sirdaş...

1992-ci ilin mayına kimi dan yeri sökülәndən gecənin bir aləminə qədər (bəzən gecələr də) gözəlliyini, səmimiyyətini, mehr-ülfətini mehmanlarından əsirgəmirdi.

1992-ci ilin mayında Şuşa işğal olundu. Şuşalı xatirələr sızıltıya dönsə də, yaşadıldı. Ə.Haqverdiyevin "Qoca tarzən"ini xatırlayıram. Qoca tarzənin "Rast"ını eşidən bülbül yaxınlıqdakı ağacın şah budağına qonur, "Rast"ın ecazkarlığında çırpınır, çırpınır və özünü tara çırpır. Pərvanələr oda çırpılan kimi. 2020-ci ilin 8 Noyabrına kimi şuşalı xatirələrin həmin bülbül sayağı İsa bulağının avazına çırpılacağına əminliklə yaşamışdıq, ordumuzun qüdrətinə sığınıb yaşamışdıq. Onda tar səsi İsa bulağının avazına sarılanda pərvanə-bülbüllərdən biri özünü yetirəcək...

Ermənilər işğal müddətində İsa bulağını "İsaak bulağı" adlandırsa da, ruhumuz 28 il Şuşanın göylərində, Cıdır düzünün qayalıqlarında, İsa bulağının həndəvərində dolaşıb. Özündən uzaq düşsək də, ruhumuz səsindən iraq düşməmişdi...

Şuşa 2020-ci ilin 8 Noyabrında işğaldan azad edildi...

2023-cü ilin payızında on illərlə çəkən sıxıntılar sonlandı. İsa bulağı da "İsaak"lıq sıxıntılarından qurtardı...

İsa bulağı əvvəlki cəhcəhəlina qayıdır. Yenə yan-yörəsi qonaqlı-qaralı olacaq. Gələnlərin sırasında hərbçiləri görüncə, onların nəfəsi nəfəsinə çatınca avazı daha da gözəlləşəcək, onda Şuşa elə gözəlləşəcək ki!..

Tanrı biçən gözəlliyi görən yenə deyəcək ki, tərifə layiqdi İsa bulağı. Nəfəsim avazına dəyən kimi diz çöküb suyunu ovuclayıb içdim, ruhum yanğıdan qurtardı, "Tərifin sığan deyil sözə, İsa bulağı!" - dedim. Əsən yellər səsimi yaxınlara-uzaqlara yetirdi...

**Mayor**
**Ceyhun CƏFƏRLİ**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar

### Daha 130 Türkiyə vətəndaşı Qəzza zolağından evlərinə qayıdıb



Daha 130 Türkiyə vətəndaşı bu gecə Qəzza zolağından evlərinə qayıdıb.

TRT Haber telekanalı xəbər verir ki, Türk Hava Yollarına məxsus təyyarə yerli vaxtla saat 02:30-da Qahirədən İstanbula çatıb.

Türkiyəyə gələnlərin əksəriyyətini yaşlılar, qadınlar, uşaqlar və tibbi yardıma ehtiyacı olanlar təşkil edir.

Türkiyə hakimiyyət orqanlarının məlumatına görə, minə yaxın vətəndaşının Qəzzadan çıxarılması, eləcə də Fələstin sakinlərinin müalicəsi Misir və İsraillə koordinasiyalı şəkildə həyata keçirilir.

### CNN: ABŞ Qəzzada girovlarla bağlı danışıqların bərpasını çətin hesab edir



Humanitar atəşkəsin bərpası və Qəzza zolağında radikal HƏMAS hərəkatının saxladığı girovların qaytarılması ilə bağlı rəsmi danışıqların tezliklə bərpa olunacağı ehtimalı yoxdur.

Bu barədə CNN yüksək rütbəli Amerika rəsmilərinə istinadən məlumat yayıb.

Bildirilib ki, danışıqlar dalana dirənib, rəsmilərin sözlərinə görə, yaxın gələcəkdə müzakirələrin bərpası perspektivi yoxdur. ABŞ prezidenti Co Bayden administrasiyasının da amerikalıların azad edilməsi ilə bağlı ayrıca danışıqlar apara bilməsi çətin prosesdir.

Telekanalın sözlərinə görə, HƏMAS-ın Vaşinqtona hər hansı xüsusi xidmət göstərəcəyinə inanmaq üçün heç bir əsas yoxdur.

Dekabrın 3-də Ağ Evin Milli Təhlükəsizlik Şurasının strateji kommunikasiyalar üzrə koordinatoru Con Kirbi təsdiqləyib ki, hazırda atəşkəsin yenilənməsi üçün rəsmi danışıqlar aparılmır. Onun sözlərinə görə, nə İsrail, nə də HƏMAS danışıqlara qayıtmaq istəmir. Kirbi bildirib ki, Qəzza zolağında səkkiz və ya doqquz amerikalı girov qalır.

Qeyd edək ki, dekabrın 1-i səhər saatlarında İsrail ordusu HƏMAS-ı atəşkəsi pozmaqda ittiham edərək Qəzza zolağında hərbi əməliyyatları bərpa etdiyini açıqlayıb.

### Pentaqon: Qırmızı dənizdə ABŞ hərbi gəmisi və bir çox ticarət gəmisi hücuma məruz qalıb



ABŞ Müdafiə Nazirliyi Qırmızı dənizdə bir Amerika döyüş gəmisinə və bir çox ticarət gəmisinə hücum edildiyini açıqlayıb.

Pentaqondan verilən yazılı açıqlamada Qırmızı dənizdəki hücumların İsrailin Qəzzaya hücumları ilə əlaqəli ola biləcəyi bildirilib.

"Biz Qırmızı dənizdə gəmilərə hücumlardan xəbərdarıq və məlumat əldə olunduqca paylaşacağıq", - deyə Pentaqonun açıqlamasında bildirilir.

Açıqlamada sözügedən hücumların kim tərəfindən həyata keçirildiyi barədə məlumat verilməyib.

**AZƏRTAC-ın materialları əsasında**

# "Heydər Əliyev İli" çərçivəsində Heydər Əliyev Mərkəzi ziyarət olundu

Ulu Öndər Heydər Əliyev Vətənimizin tarixində müstəsna yeri olan tarixi şəxsiyyətdir. Onun həyatı, fəaliyyəti həmişə doğma xalqına, Vətəninə bağlı olmuşdur. Keçmiş sovet hakimiyyəti illərində dünya şöhrətli dövlət xadimi uzaqgörənliyi ilə ölkəmizdə genişmiqyaslı quruculuq işləri həyata keçirmişdir. İqtisadiyyat, elm, təhsil, mədəniyyət sahələrində böyük uğurlara imza atmışdır. Azərbaycanlı gənclərin xarici ölkələrdə, ali hərbi məktəblərdə təhsil almalarına həmişə böyük diqqət yetirmişdir. Azərbaycanda ali hərbi təhsil sisteminin yaradılması da onun adı ilə bağlıdır. SSRİ-nin rəhbərliyində işlədiyi müddətdə də həmişə ölkəmizə böyük diqqət yetirmiş, xalqını, Vətənini düşünmüşdür.

Bütün bunlar barədə "Heydər Əliyev İli" çərçivəsində Gəncə Qarnizonu İdeoloji və Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə təşkil olunan, əməliyyat tədbirlərində fəal iştirak etmiş əsgərlərin Gəncə şəhərində Heydər Əliyev Mərkəzinə ekskursiyaları zamanı ətraflı danışılmışdır. Mərkəzin əməkdaşları 2023-cü ilin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən "Heydər Əliyev İli" elan edilməsinin hər yerdə böyük rəğbətlə qarşılandığını bildirdilər.

İyirminci yüzillikdə ölkəmiz müstəqilliyini bərpa etdikdən sonra dövlətçiliyə, müstəqilliyə qarşı olan təhlükələr, hakimiyyətsizlik, Vətənimizə qarşı başlanan elan olunmamış müharibə böhranlı vəziyyət yaratdı. Erməni qüvvələri tərəfindən torpaqlarımız işğala məruz qaldı. İyirmi faiz ərazilərimiz onların nəzarətinə keçdi. Belə ağır, mürəkkəb şəraitdə xalqımız geniş və zəngin dövlətçilik təcrübəsinə malik, xalqına, Vətəninə xidməti həyatının mənası hesab edən dövlət xadimi Heydər Əliyevə üz tutdu...

Azərbaycan xalqının tarixinə möhtəşəm Qurtuluş Günü kimi daxil olan 15 iyun 1993-cü il ölkəmizin həyatında yeni dövrün başlanğıcı oldu.

1995-ci ilin 12 noyabrında Heydər Əliyevin rəhbərliyi ilə hazırlanan müstəqil dövlətimizin tarixində mühüm sənəd olan Azərbaycanın ilk Konstitusiyası qəbul edildi. Müstəqil dövlətimizin Konstitusiyası ölkənin gələcək inkişaf prioritetlərini müəyyənləşdirdi. İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsini dövlətin ali məqsədi kimi bəyan etdi.



Müstəqilliyin, dövlətçiliyin əsası olan ordu quruculuğuna xüsusi diqqət yetirildi. Azərbaycan Silahlı Qüvvələri yeni dövrün tələbləri əsasında formalaşmağa başladı. Vahid komandanlıq yaradıldı. Çox keçmədi ki, Silahlı Qüvvələrimiz düşmənə qarşı keçirdiyi döyüş əməliyyatı ilə 1994-cü ildə Füzuli bölgəsində kənd və qəsəbələri işğaldan azad etdi. 12 may 1994-cü ildə atəşkəs müqaviləsi imzalandı. Bundan sonra ordu quruculuğuna daha çox diqqət ayıran Ulu Öndər qətiyyətlə bildirdi ki, "Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var". Müasir Azərbaycan Ordusunun yaradılması və qurulması da onun adı ilə bağlıdır.

Azərbaycan xalqının Ümummilli Liderinin həyata keçirdiyi böyük islahatlar müasir dövrün tələbləri səviyyəsində onun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən böyük fədakarlıqla davam etdirilir.

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev xalqın dəstəyi ilə Prezident seçildikdən sonra onun əsas məqsədi, məramı işğal altında olan Vətən torpaqlarının azad edilməsi olmuşdur. Böyük manevrlərə, təzyiqlərə, çətinliklərə baxmayaraq o, beynəlxalq hüquqa, qayda-qanunlara əsaslanaraq Azərbaycan dövlətinin, xalqının haqlı mövqeyini qətiyyətlə müdafiə etmiş, qarşı tərəfə münaqişənin ədalətlə və sülh yolu ilə həll etməyin vacibliyini dəfələrlə bildirmişdir. Ancaq havadarlarına arxalanan düşmən qüvvələri sülh çağırışlarına məhəl qoymadılar. Yeni torpaqlar işğal etmək iddialarını gizlətmədilər. Dəfələrlə ərazilərimizdə təxribatlar və böyük hərbi cinayətlər törətdilər. Bu təxribatlar nəticəsində hərbçilərimiz, mülki vətəndaşlarımız həlak oldular. 2020-ci ilin 27 sentyabrında olan düşmən hücumlarına qarşı Ali Baş Komandan tərəfindən əks-hücum əmri verildi.

Ermənistan ordusunun qalıqları Qarabağ ərazisində qalmaqda davam etdilər, yenə də təxribatlar törətdilər. 19 sentyabr 2023-cü ildə ordumuz tərəfindən keçirilən əməliyyat tədbirləri zamanı düşmən ağ bayraq qaldıraraq təslim olduğunu bildirdi. Çoxlu sayda silah-sursat, texnika Azərbaycan Ordusu tərəfindən qənimət kimi götürüldü. Bununla da ölkəmizin suverenliyi tam təmin olundu. İndi ölkəmizin hər yerində dövlətçiliyin, müstəqilliyin rəmzi olan üçrəngli bayrağımız dalğalanır. Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev dəfələrlə bildirirdi ki, vaxt gələcək qürur mənbəyimiz olan üçrəngli bayrağımız Şuşada, Ağdamda, Xocalıda, Əsgəranda, Ağdərədə, Laçında, Cəbrayılda, Xocavənddə, Kəlbəcərdə, Qubadlıda, Xankəndidə, Füzulidə qaldırılacaqdır. Bütün Azərbaycan xalqı qürur hissi keçirir ki, "hər ölkə vətəndaşının Prezidenti olacağam" deyən dövlət rəhbəri xalqımızın böyük etimadını doğrultdu və Ulu Öndər Heydər Əliyevin ata vəsiyyətini yerinə yetirdi.

Sonra əsgərlər Ulu Öndərin həyat və fəaliyyətindən bəhs edən sənədlər və fotoşəkillərlə yaxından tanış oldular. Vətən müdafiəçiləri Ulu Öndərə bir daha hörmət və ehtiramlarını bildirdilər. Onlar Mərkəzi xoş ovqatla tərk etdilər və xatirə şəkli çəkdirdilər.

**Mübariz MUSAYEV**
**"Azərbaycan Ordusu"**

# Hərbi texnikalar, silahlar

## Spartan taktiki nəqliyyat təyyarəsi



C-27J Spartan təyyarələri "Leonardo" kompaniyasının istehsalıdır, mürəkkəb coğrafi relyef və əməliyyat şəraitində müdafiə və mülki müdafiə missiyalarını yerinə yetirərkən özünü beynəlxalq təcrübədə doğruldub.

"Alenia" C-27J Spartan, "Leonardo-Finmeccanica" şirkəti (2016-cı ilə qədər keçmiş "Alenia Aermacchi") tərəfindən hazırlanmış və orta ağırlıqdakı yüklərin daşınması üçün nəzərdə tutularaq istehsal edilmiş hərbi nəqliyyat təyyarəsidir. O, "Aeritalia" G.222 təyyarəsinin bazasında hazırlanıb və daha böyük "Lockheed Martin" C-130J "Super Hercules"də istifadə edilən mühərriklər və müxtəlif digər sistemlərlə təchiz olunub.

Ən çətin coğrafi relyef və əməliyyat şəraitində özünü sübut etmiş C-27J Spartan təyyarələri geniş çeşidli müdafiə və mülki müdafiə missiyalarını yerinə yetirməyə qadirdir. Bu, hərbi nəqliyyat missiyaları, paraşütçülərin və materialların havadan atışları, taktiki qoşun dəstəyi, xüsusi təyinatlıların əməliyyatları, humanitar yardım və fəlakətlərin nəticələrinin aradan qaldırılması üçün ideal hesab olunur.

Bəzi taktiki-texniki göstəricilərinə gəlincə: ekipajı 2 nəfərdir. Sərnişin tutumu - 60-a qədər əsgər və ya 46 paraşütçü və ya 6 müşayiətçi ilə xərəklərdə 36 yaralı; yük götürmə qabiliyyəti 11,300 kq-dır. Uzunluğu 22,7 metr, qanadların eni 28,7 metr, qanad sahəsi isə 82 kv.m-dir. Hündürlüyü 9,64 metr, yük sahəsi 3,33x2,60, boş təyyarənin çəkisi 17500 kq-dır.

Uçuş xüsusiyyətləri:

Kruiz sürəti 583 km/saat, maksimum sürəti 602 km/saat, minimum sürəti 194 km/saat, qalxma sürəti isə 13 m/s-dir.

**Hazırladı:**
**Könül CƏFƏRZADƏ**
**"Azərbaycan Ordusu"**

# İdman

## UEFA prezidenti: Dünya çempionatının qışda keçirilməsi futbola fayda verməди



"Son dünya çempionatının qışda keçirilməsi futbola fayda verməди".

Bu sözləri UEFA-nın prezidenti Aleksander Çeferin xarici KİV-ə açıqlamasında Qətərin ev sahibliyi etdiyi DÇ-2022-nin qış aylarında keçirilməsi barədə danışarkən deyib.

O bildirib ki, qurum ayrı-seçkilik və sui-istifadənin bütün formaları ilə mübarizə aparmaq üçün əlindən gələni edir: "Amma heç kim turnirdən şəxsi və ya siyasi maraqlar üçün istifadə etməməlidir. Mən bir şeyə əminəm ki, son mundial futbol üçün yaxşı təcrübə deyildi və bunu təkrarlamaq ağılsızlıq olar. Bu, oyun təqvimində həddən artıq yüklənmə yaradar".

Qeyd edək ki, DÇ-2022 noyabrın 20-dən dekabrın 18-dək Qətərdə keçirilib. Turnirin qalibi Argentina yığması olub. 2026-cı il mundialına ABŞ, Meksika və Kanada ev sahibliyi edəcək.

## Azərbaycanın daha bir paracüdoçusu Tokioda fəxri kürsüyə qalxıb




Paracüdo üzrə Azərbaycan yığması Yaponiyanın paytaxtı Tokioda keçirilən Qran-pridə daha bir medal qazanıb.

Milli Paralimpiya Komitəsindən verilən məlumata görə, 73 kiloqram çəki dərəcəsində mübarizə aparan Namiq Abaslı üçüncü yer uğrunda görüşdə özbəkistanlı Feruz Sayıdovu məğlub edərək fəxri kürsüyə qalxıb.

J2 kateqoriyasında mübarizə aparan idmançı 2021-ci ildə Tokioda keçirilmiş Yay Paralimpiya Oyunlarında da üçüncü yeri tutmuşdu.

Qeyd edək ki, daha əvvəl Azərbaycan paracüdoçularından Vüqar Şirinli (60 kiloqram) və Şəhanə Hacıyeva (48 kiloqram) Qran-pridə gümüş medal qazanıblar.

## Azərbaycanın fiqurlu konkisürəni beynəlxalq yarışda 1-ci yeri qazanıb



Azərbaycanı Fiqurlu Konkisürmə üzrə yarışlarda təmsil edən idmançımız Vladimir Litvintsev Türkiyənin İstanbul şəhərində keçirilən "Bosphorus Istanbul Cup-2023" beynəlxalq yarışında iştirak edib.

Təmsilçimiz 9 ölkədən olan 11 idmançı arasında 221.10 xal toplayaraq 1-ci yerə sahib olub.

**AZƏRTAC-ın materialları əsasında**

Mayor Orucov Rauf Rəşid oğluna məxsus MN № 0049 nömrəli zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Gizirlər Nastalkov Namiq Camaldin oğluna məxsus SQ № 0012363 nömrəli, Həsənzadə Nofəl Səfər oğluna məxsus SQ № 0022163 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları kiçik çavuş Şıxəlizadə Xankişi Qafar oğluna məxsus AD № 0042398 nömrəli, əsgər Zeynalov Taleh Vahid oğluna məxsus AD № 0045824 nömrəli, əsgər Ağayev Ədalət Aynur oğluna məxsus AD № 0063029 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

**Baş redaktorun müavini** mayor Məhəmməd NƏSİRLİ

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
kapitan Fuad CƏFƏROV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi Nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 812
Nüsxə 4752